**1.** Qaçış yolu uyğun tərəfləri bir-birinə paralel olan iki üçbucaq formalı sahə ($ABC$ və $DEF$) ilə hüdudlanmışdır. Bu yolun bütün kənarları boyunca $A$ və $D$ təpələrindən başlayaraq aralarındakı məsafə 5 metr olmaqla ağaclar əkilmişdir.
$AB = 160\,\text{m}$, $AC = 180\,\text{m}$, $BC = 200\,\text{m}$ və $DF = 45\,\text{m}$ olarsa, əkilmiş bütün ağacların sayını tapın.




*(6 aprel 2025, DİM)*

**2.** İki kürədən birincinin həcmi ikincinin həcmindən 27 dəfə böyükdür. Birinci kürənin səthinin sahəsi ikinci kürənin səthinin sahəsindən neçə dəfə böyükdür?

A) 3 B) 9 C) $9\sqrt{3}$ D) $3\sqrt{3}$ E) 27

*(9 mart 2025, DİM)*

**3.** $x' = x + 4$ və $y' = y + 1$ düsturları ilə verilən paralel köçürmədə $A(-3;\ 2)$ nöqtəsi hansı nöqtəyə çevrilər?

A) $(-3;\ 2)$ B) $(-1;\ 3)$ C) $(2;\ 3)$ D) $(-1;\ -3)$ E) $(1;\ 3)$

*(9 mart 2025, DİM)*

**4.** $m$ parametrinin hansı qiymətində $A(m + 1; m + 6)$ və $B(m + 5; m - 4)$ nöqtələri $3x + 2y = 26$ düz xəttinə nəzərən simmetrik olar ?

*(5 mart 2023, DİM)*

**5.** $ABC$ üçbucağında $MN \parallel AC$, $MN = 10$, $AC = 15$ və $BC = 18$ olarsa, $BN$ parçasının uzunluğunu tapın.




*(12 mart 2022, DİM)*

**6.** Paralel köçürmədə $B(-2;\ 7)$ nöqtəsi $A(10;-3)$ nöqtəsinə keçir. Bu paralel köçürmədə $AB$ parçasının orta nöqtəsi hansı nöqtəyə keçər?

*(6 mart 2022, DİM)*

Düzgün cavablar

1 (135)   2B   3E   4 (3)   5 (12)   6 (16;–8)